AZƏRBAYCAN XƏBƏRLƏRİ

# İran prezidenti Azərbaycanla münasibətləri genişləndirməkdə maraqlı olduqlarını deyir

AzadlıqRadiosu ©

2 saat öncə




Azərbaycan və İran prezidentləri görüşür

Avqustun 31-də Bişkekdə Azərbaycan prezidenti **İlham Əliyev**in İran İslam Respublikasının prezidenti **Məsud Pezeşkian**la görüşü olub.

AZƏRTAC-ın xəbərinə görə, **Pezeşkian** ölkəsinin üzləşdiyi çətin vəziyyətdə Əliyevin mövqeyinin, nümayiş etdirdiyi dəstəyin, həmçinin Azərbaycan tərəfindən göstərilən humanitar yardımın İran dövləti və xalqı tərəfindən çox yüksək qiymətləndirildiyini vurğulayıb.

Əlaqələrin inkişaf etdirilməsi üçün çox yaxşı imkanların olduğunu deyən İran prezidenti Azərbaycanla bütün sahələrdə münasibətləri genişləndirməkdə maraqlı

olduqlarını qeyd edib.

**Əliyev** də, öz növbəsində, İranın üzləşdiyi bu şəraitdə Azərbaycanın yardımının qardaşlıq nümunəsi olduğunu vurğulayıb. O deyib ki, ölkəsi İranla bağlı yaranmış vəziyyətin sülh və danışıqlar yolu ilə həllinin tərəfdarıdır.

Söhbət zamanı Azərbaycanla İran arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

Əliyev və Pezeşkian Şanxay Əməkdaşlıq Təşkilatının (ŞƏT) sammitində iştirak etmək üçün avqustun 31-də Qırğızıstana işgüzar səfərə gəliblər.

## Xatırlatma

Azərbaycan-İran münasibətləri 2023-cü ilin yanvarında Azərbaycanın Tehrandakı səfirliyinə silahlı hücumdan sonra xeyli gərginləşib. Həmin hücumda bir nəfər həlak olmuşdu.

Sonrakı dövrdə əlaqələrdə müəyyən yumşalma yaranıb, tərəflər birgə hərbi təlimlər keçirib. Amma regional geosiyasi gərginlik fonunda yeni böhranlar yaşanıb. Xüsusilə 2026-cı ilin martında İsrail və ABŞ-nin İranla hərbi toqquşmaları zamanı Azərbaycanın Naxçıvan bölgəsinə dronların düşməsi münasibətləri yenidən sınağa çəkib. Prezident Əliyev bu hadisəni "terror aktı" kimi pisləyərək İrandan rəsmi üzrxahlıq tələb edib. Tehran isə qonşu dövlətləri hədəf almadığını bəyan edərək araşdırma aparılacağını bildirib. Gərginlik səbəbindən dayandırılan yük daşımaları iki ölkə liderinin telefon danışığından sonra bərpa edilib. Ardınca Azərbaycan İrana humanitar yardım göndərib.

Son vaxtlar ABŞ İrana qarşı illərlə davam edən sanksiyaları bir az da gücləndirib.ABŞ İranın nüvə proqramını dünyaya təhdid sayır.İran isə həmin proqramdan geri çəkildiyini açıqlamır.

**AzadlıqRadiosu ©**

*- **MÜTLƏQ** hiperlinklə istinad verilməlidir.*
*- İcazə olmadan fotolarımızı təkrar dərc etməyin.*
*İstifadə şərtləri haqda* ***ətraflı burada***

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur